***AZƏRBAYCANIN RUSDİLLİ ƏDƏBİYYATI***

***(PORTRET- OÇERKLƏR)***

***Tərtibçi:***

***Lalə Tofiq qızı Həsənova***

***Bakı- 2024***

***Təqdim olunan biblioqafik göstəricidə Azərbaycan ədəbiyyatının rusdilli nümayəndələri haqqında portret-oçerklər yer almışdır. Rusdilli ədəbiyyat dedikdə Rüstəm və Maqsud İbrahimbəyov qardaşları, Çingiz Hüseynov kimi imzalar xatırlansa da, bu ədiblər haqqında məlumatların çoxluğu, hətta ayrıca monoqrafiyaların mövcudluğu nəzərə alınıb onlardan bəhs edilməmişdir. Biz bu araşdırmada əsasən, XX əsrin 80-90-cı illərində ədəbiyyata gələn və eyni zamanda müasir ədəbi nəslin nümayəndələri haqqında məlumatlara yer verməyə çalışmışıq. Müəlliflər haqqında məlumat müxtəlif mənbələr (Vikipediya, şəxsi əlaqələr, KİV-də yer alan materiallar və s.) əsasında toplanılmışdır. Elektron nəşr olaraq hazırlanan mənbənin gələcəkdə daha da dolğunlaşdırılması nəzərdə tutulur. Bu baxımdan kitabda yer almayan müəlliflər, maraqlı faktlar haqqında hər bir oxucu bizə müraciət edərək bilgilərini bölüşə bilər. Rəy və təklifləriniz bizim üçün dəyərlidir.***

**hltlala@mail.ru**

## *Müəlliflərin siyahısı*


**Aleksandr Leonidoviç Qolşteyn ... 5**

**Aleksandr Romanoviç Qriç (Qureviç) ... 7**

**Aleksandr Şamilyeviç Xakimov ... 9**

**Aleksey Saprıkin ... 11**

**Alina Talıbova ... 12**

**Afanasiy İsaakoviç Məmmədov ... 13**

**Aydın Əfəndi (Aydın Niyazi oğlu Əfəndiyev) ... 15**

**Çingiz Akif oğlu Abdullayev ... 16**

**Eldar Əlixas oğlu Əhədov ... 18**

**Elmira Hüseyn qızı Axundova ... 20**

**Elçin Səfərli ... 22**

**Elizabet Tüdor (Lalə Həsənova) ... 24**

**Əfruz Məmmədova ... 25**

**Əkrəm Məlikov ... 26**

**Ələddin Qaraxan oğlu Yaqubov ... 27**

**İqor Yuryeviç Revva ... 28**

**İvan Polikarpoviç Tretyakov ... 30**

**Laçın Səmədzadə (Laçın) ... 31**

**Leyla Bəyim (Cəfərova) ... 32**

**Leyla İlham qızı Əliyeva ... 34**

**Ləman Sərhəd qızı Bağırova ... 36**

**Marat Şəfiyev ... 37**

**Marina Mürsəlova ... 38**

**Mənsur Fəxri oğlu Vəkilov ... 39**

**Mixail Salman ... 41**

**Murad Maqsud oğlu İbrahimbəyov ... 42**

**Nadir Süleyman oğlu Ağasıyev ... 44**

**Natiq  Rəsul oğlu Rəsulzadə** ........ **45**
**Nərminə Məmmədzadə** ........ **46**
**Nicat Məmmədov** ........ **48**
**Nikolay Borisoviç Xatunsev** ........ **49**
**Nigar Həsənzadə** ........ **50**
**Samid  Sahib oğlu Ağayev** ........ **52**
**Sahib Əziz oğlu Məmmədov** ........ **53**
**Səidə  Eldar qızı Sübhi (Salayeva)** ........ **54**
**Sənan Dayandur oğlu İsmayılov** ........ **55**
**Səyavuş İmran oğlu Məmmədzadə** ........ **57**
**Tofiq Hüseynbala oğlu  Ağayev** ........ **59**
**Valentina Əfəndiyeva** ........ **60**
**Vladimir  Əbüləzim oğlu Qafarov** ........ **61**
**Vyaçaslav Petroviç Zaytsev** ........ **62**
**Yana Kandova** ........ **63**

Aleksandr Leonidoviç Qolşteyn
(15.12. 1957, Tallin— 16.07. 2006, Tel Əviv)



*Yazıçı, esseist, jurnalist «Malıy Buker» (1997) və «Antibuker »(1997), həmçinin* Andrey *Belıy mükafatlarının laureatı (“Nəsr”nominasiyası üzrə, ölümündən* sonra (2006).

*Uşaqlıq illərində ailəsi ilə birgə Bakıya köçüblər.* Azərbaycan Dövlət Universitetinin filologiya *fakültəsini* bitirib. 1988-ci ildə *“M.F.Axundov və* Qərb maarifçi nəsrinin ənənələri*” mövzusunda namizədlik dissertasiyasını müdafiə* edib. 1991-ci ildən Tel-Əvivə köçüb. *Bir çox rusdilli mətbu* orqanlarda, jurnal və qəzetlərdə məqalə və esseləri dərc olunmuşdur (“Zerkalo”*nun redaksiya heyətinin üzvü olub).*

*Gənc yaşında vəfat etməsində baxmayaraq, müasir ədəbiyyat nümayəndələri onun yaradıcılığını* yüksək qiymətləndirirlər. Nicat Məmmədov : *“В Баку был прозаик Александр Гольдштейн – он писал стихопрозу, тоже мне очень нравится;* Afanasiy Məmmədov:*“...Александра Гольдштейна, рано покинувшего сей мир. Кстати, я в свое время сделал материал в журнале "Лехаим" об Александре Гольдштейне - "Александрийские поля имперской литературы". Материал понравился Саше Соколову...”.*

*Müəllifin «Aspektı duxovnoqo braka» (2016) və «Pomni o Famaquste” (2021) romanları alman* dilinə tərcümə edilib.

***Kitabları:***

- *Гольдштейн А. Расставание с Нарциссом,- М.:НЛО, 1997 (премии «Анти-Букер» и «Малый Букер» (2-е изд. 2011)*
- *Гольдштейн А. Аспекты духовного брака. -М.: НЛО, 2001.*
- *Гольдштейн А. Помни о Фамагусте, М.: НЛО, 2004.*
- *Гольдштейн А. Спокойные поля.- М.: НЛО, 2006 (премия Андрея Белого, посмертно).*
- *Гольдштейн А. Памяти пафоса. -М.: НЛО, 2009*

Aleksandr Romanoviç Qriç (Qureviç)

(13.12.1944, Bakı)



***Şair, nasir, tərcüməçi, publisist, teleaparıcı, prodüsser.***

*Azərbaycan Dövlət Neft və Sənaye universitetini bitirib (1967). Müxtəlif mətbu orqanlarda çalışıb. 1976-cı ildən 1992-ci ilə qədər "Literaturnıy Azerbaydjan" jurnalında şöbə müdiri olub. 1992-ci ildən Los Anceles şəhərində köçsə də, bu günə qədər "Literaturnıy Azerbaydjan" jurnalının redaksiya heyətinin üzvüdür. Hal-hazırda Kalifiorniyada (ABŞ) yaşayır.*

*Yeniyetməlik illərindən bədii yaradıcılıqla məşğul olur. Həmçinin Azərbaycan ədəbiyyatının, Hüseyn Cavid, Rəsul Rza, Bəxtiyar Vahabzadə, Sabir Əhmədov, Mövlud Süleymanlı kimi bir çox klassik və müasir nümayəndələrini rus dilinə tərcümə edib. Kitabları və tərcümələri Moskvada, Bakıda, Los-Ancelesdə, Kanadada çap olunub.*

***Kitabları:***

- *Ахмедов С. Избранные произведения в 2 томах. (Включает переводы А.Грича).- Баку: Азернешр, 1989.*
- 
- *Годжа Ф. Единственный мой мир. Стихи и отрывки из поэм. (Включает переводы А.Грича). -Баку: Язычи,1987.*
- *Годжа Ф. Не гасите огонь. Стихи.( Перевод с азербайджанского А.Грича). -Москва: Советский писатель, 1985.*
- *Грич А. Вилла мертвого доктора. Детективы. -Москва: Эксмо, 2017.*

- *Грич А. Всё золото мира. -Москва: Эксмо, 2019.*
- *Грич А. Кто убьет президента. -Москва: Эксмо, 2019.*
- *Грич А. Надейся и верь. Стихи и переводы. -Лос-Анджелес: ARG Publishing, 2019.*
- *Грич А. Один, другой, третий. Стихи и поэма. -Баку: Язычы, 1990.*
- *Грич А. Окно в моем дому» Стихи.- Лос-Анджелес: Автограф, 2004.*
- *Грич А. Осенняя остановка. Истории из жизни. -Лос-Анджелес: Автограф, 2011.*
- *Грич А. Погода. Стихи. -Баку: Язычы, 1985.*
- *Грич А. Рубаи Хайяма Анакойхер ( перевод с языка ачумави А.Грича), -Оттава: Неформат, 2013.*
- *Грич А. Такие дела. Стихи. -Баку: Гянджлик, 1981.*
- *Грич А. Сага о Криманах. -Москва: Кольцо «А», 2012.*
- *Грич А. Тень иракского снайпера -Москва: Эксмо, 2017.*
- *Грич А. Месседж от покойника. -Москва: Эксмо, 2018.*
- *Рагимов С. Орлица Кавказа. Роман в двух книгах. (Перевод А.Грича). -Баку: Язычы, 1989.*
- *Рза Р. Избранные произведения. -Москва: 1982, Художественная литература (Включает переводы А.Грича).*
- *Рза. Р. Пунктиры времени. Стихи. (Включает переводы А.Грича). -Москва: «Советский писатель», 1988.*

## Aleksandr Şamilyeviç Xakimov

(02.04.1960, Bakı)



*Yazıçı-fantast, jurnalist, publisist. Azərbaycan Yazıçılar Birliyinin və Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür. "Nəsr" nominasiyası üzrə "Rusiyanın Qızıl Qələm" Milli Ədəbi Mükafatının laureatıdır (2021).*

*Orta təhsilini Bakıda 42 №- li orta məktəbdə alıb (1977). Bakı Dövlət Universitetinin biologiya fakültəsini bitirib (1986).*

*İlk olaraq özünü jurnalist olaraq sınayıb. İlk yazısı 1987-ci ildə çap edib. Əsərləri Moskva, Leninqrad (indiki Sankt-Peterburq), Alma-Ata, Sverdlovsk, Bakıda çap olunub. 2000-ci ildən yazıçı-fantast olaraq yaradıcılığa başlayıb. Azərbaycanda çap edilən rusdilli qəzetlərdə çalışıb. 13 kitabın müəllifidir. Əsərləri Azərbaycan və macar, bolqar dillərinə tərcümə edilib. Boris Struqatskinin rəhbərlik etdiyi fantast- yazıçıların seminarının üzvüdür (Sankt-Peterburq).*

*Boş vaxtlarında Bakının müxtəlif rok-qruplarında bas-gitarada ifa edir. 2005-ci ildə Beynəlxalq kinossenaristlər kursunu bitirib. Bir neçə filmdə rol almışdır.*

***Kitabları:***

- *Хакимов А. Ничего страшного! (сказка для небольших детей, а также их родителей). Ставрополь. Издательство Ставропольского Государственного университета, 2003 г. — 51 с.*

- *Хакимов А. Tertium non datur (Джава). Фантастическая повесть. Серия «Наша фантастика» — Баку: Мутарджим,2006. — 200 с.*
- *Хакимов А. Экскурсия в Авалон. Фантастическая повесть. Серия «Наша фантастика». — Баку: Мутарджим, 2007. — 112 с.*
- *Хакимов А. Двойной ноктюрн. Повесть, рассказы, комментарии. Серия «Наша фантастика». — Баку: Мутарджим, 2008 г. — 170 с.*
- *Хакимов А. Длинные полуденные тени. Фантастический триллер. (серия «Наша фантастика»). — Баку: Мутарджим, 2009. — 168 с.*
- *Хакимов А. Жить без обезьяны (опыт колумнистики) — Баку: Мутарджим, 2010. — 232 с.*
- *Хакимов А. Не хочу к амазонкам! (опыт колумнистики-2). — Баку: Мутарджим, 2011. — 320 с.*
- *Хакимов А. Малое Магелланово облако (опыт колумнистики-3). — Баку: Мутарджим, 2012. — 290 с.*
- *Хакимов А. Виннету с Первой Нагорной (проза и эссеистика). — Баку: Мутарджим, 2013. — 294 с.*
- *Хакимов А. Лицо фантастической национальности (проза и эссеистика). — Баку: Мутарджим, 2014. 426 с.*
- *Хакимов А. Звездная ящерка. Избранная проза и публицистика. — Ставрополь: Звездочкин, 2016. — 111 с.*
- *Хакимов А. Зевающая чайка (проза, стихи, эссе, статьи). — Баку: Мутарджим, 2017. — 228 с.*
- *Хакимов А. Messages (Послания). Избранная проза, поэзия, публицистика, сценарии. — Баку: Мутарджим, 2017. — 160 с.*
- *Хакимов А. Иные области. – Иерусалим, «Млечный путь», 2020. – 425 с.*
- *Хакимов А. Титанец. Издательство " Другое Решение", Республика Молдова, 2021, 65 с.*
- *Хакимов А. Синхронный старт. Иерусалим, Издательство "Млечный Путь", серия " Звезды" Млечного Пути", 2022. - 156 с.*
- *Хакимов А. Джава. Киев, Издательство Стрельбицкого, 2022. - 338 с.*
- *Хакимов А. Зрячие слепцы. -Баку: Ганун, 2022. - 208 с.*

Aleksey Saprıkin

(18.08.1955-8.11.2019, Bakı)



*Yazıçı, aktyor (Bakının müxtəlif teatrlarında, 2008-ci ildən isə Akademik Rus Dram Teatrında çalışıb) olaraq fəaliyyət göstərib.*

*1992-1996-cı illərdə könüllü olaraq Birinci Qarabağ müharibəsində iştirak edib. "Da nesudimı budem!" (2003) kitabında müharibədə şahidi olduğu hadisələr əks olunub. Əsərləri əsasən "Literaturnıy Azerbaydjan" jurnalında çap olunub.*

Alina Talıbova



*Şair, tərcüməçi, jurnalist. "Qızıl qələm" (2013) mükafatı laureatıdır. AYB və AJB-nin üzvüdür. Ədəbiyyat və incəsənət sahəsindəki fəaliyyətinə görə "Tərəqqi" (2019) medalı ilə təltif edilmişdir.*

*Bakıda anadan olub. İxtisasca ingilis dili müəllimidir. 1990-cı illərin sonlarından çap olunmağa başlayıb. 2008-ci ildən "Literaturnıy Azerbaydjan" jurnalının poeziya şöbəsinə rəhbərlik edir. Azərbaycan şairlərindən, klassik və müasir ingilis və amerika poeziyasından, slovak, gürcü müəlliflərinin yaradıcılığından çoxsaylı tərcümələr etmişdir. Şeirləri müxtəlif xarici nəşrlərdə və almanaxlarda yer alıb: "Arion", "Yeni gənclik", "Puşkinotı" (Rusiya), "Xarici qeydlər", "Yeddi sənət", "Yeni İntibah" (Almaniya), " İnterpoetry" (ABŞ), "Dünya qadınlarının poeziyası", "Bir səma altında" (Finlandiya), "Şərqin ulduzu", "Kiçik İpək Yolu" (Özbəkistan), "ABG Leaflet", "Rus klubu", "Dostluq yolu" (Gürcüstan) və s. Müxtəlif respublika ədəbi festivallarının münsiflər heyətinin üzvü, respublikanın rusdilli müəlliflərinin bir neçə kollektiv nəsr və poeziya almanaxlarının redaktoru və tərtibçisidir. Cənubi Qafqazda keçirilən uşaq və gənclər poeziya festivallarının kuratoru olub. Jurnalistikada fəal iştirak edir, ölkə mediasının səhifələrində sosial və mədəni mövzularda məqalələrlə çıxış edir, yerli və xarici mədəniyyət xadimləri ilə çoxsaylı müsahibələri vardır. 2014-cü ildə xaricdə rusdilli KİV-in işinə verdiyi töhfəyə görə Rusiya İşlər üzrə Hökumət Komissiyasının fəxri diplomu ilə, 2015-ci ilin yanvarında isə respublikada rus dilinin inkişafı və dəstəklənməsində xidmətlərinə görə Rusiyanın Azərbaycandakı səfirinin mükafatına layiq görülüb. Üç şeir və tərcümə toplularının müəllifidir, rusdilli müəlliflərin əsərlərindən ibarət bir neçə nəsr və poeziya antologiyalarının redaktoru və tərtibçisidir.*

*Poeziya festivallarının, müasir ədəbiyyat, tərcümə ilə bağlı forumların iştirakçısı, diplomantı, Beynəlxalq müsabiqələrin laureatıdır.*

Afanasiy İsaakoviç Məmmədov

( 24.07.1960, Bakı)




Yazıçı, jurnalist, redaktor, ədəbi tənqidçidir. M.Qorki adına Ədəbiyyat İnstitutunun məzunu, Moskva Yazıçılar Birliyinin və Rus Pen-klubunun üzvüdür. 1985-ci ildən Moskvada yaşayır.

Rusiyada keçirilən müsabiqələrdə bir neçə ədəbi mükafata layiq görülüb. Roman və povestləri ədəbi ictimaiyyət tərəfindən maraqla qarşılanan yazıçı ötən əsrin 80-ci illərindən çap olunmağa başlayıb. İlk hekayəsi 1983-cü ildə "Literaturnıy Azerbaydjan" jurnalında çap olunub. 1990-cı illərdən başlayaraq Moskva ədəbi orqanları olan "Drujba narodov", "Znamya", "Oktyabr" jurnallarında çap olunur.

"Xəzər küləyi" (2000), "Frau Şram"(2004), «Patrisiy: yüzüncü roman (2005), «Babelon paroxodu» (2021), «Fil», "Abşeron xronikaları " hekayələr toplusunun, povest və tənqidi esselərin müəllifidir. Avtobioqrafizmə geniş yer ayıran yazıçının yaradıcılığında Bakının tarixi ("Babel paroxodu"), 90- cı illərin Bakısı ("Xəzər küləyi") geniş təsvir olunub. Onun yaradıcılığına xas şərq motivləri müasirləri tərəfindən xüsusi vurğulanır.

Son illərdə "Киноварь, или Перезагрузка в Тунисе" povesti (əsər ilk dəfə 2015-ci ildə "Drujba narodov" jurnalında Rusiyada nəşr edilib), «Янкель и пустые холмы» (2021) hekayəsi çap olunub. Hər iki əsərində yazar psixoloji-fəlsəfi üslubuna sadiqdir.

**Kitabları.**

- Мамедов А. И. Хазарский ветер : повести и рассказы. — М. : Текст : Дружба народов, 2000. №6, — 283 с.
- Мамедов А. И. Слон : короткий роман и 8 рассказов. — М. : Время, 2004. — 368 с.

- *Мамедов А. И. Фрау Шрам : роман. — М. : Время, 2004. — 366 с.*
- *Мамедов А. И., Милькин И. А. Патриций: роман номер сто. — М. : Время, 2005. — 272 с.*
- *Мамедов А. И. Время чёток [Хазарский ветер ; Фрау Шрам] : романы / предисл. Б. Т. Евсеева. — М. : Хроникёр, 2007. — 592 с.*
- *Мамедов А. И. Хорошо, что только раз : Повесть. Диптих. Рассказы. Триптих. Хроники. — М. : Б.С.Г.-Пресс, 2013. — 352 с.*
- *Мамедов А. И. Пароход Бабелон : роман. — М. : Эксмо, 2021. — 384 с. (Русский Декамерон. Премиальный роман).*
- *Мамедов А. Киноварь, или Перезагрузка в Тунисе. Повесть. — М. : // Дружба народов, 2015. №10.*
- *Мамедов А. Янкель и пустые холмы // Баку: Литературный Азербайджан, 2021, №12, с. 39-48*

Aydın Əfəndi (Aydın Niyazi oğlu Əfəndiyev)

(1959-1996, Bakı)



*Bakı Dövlət Universitetinin mexanika-riyaziyyat fakültəsini bitirib. 24 yaşında riyaziyyat üzrə elmlər namizədi elmi dərəcəsi alıb. İxtisasca riyaziyyatçı olan Aydın Əfəndi Finlandiya Universitetlərinin birində mühazirə oxumuşdur. 1981-ci ildə bədii yaradıcılığa başlayıb. Yusif Səmədoğlunun təqdimatı ilə "Literaturnaya qazeta"da haqqında yazı ilə bərabər şeirləri dərc olunub. Aydın Əfəndinin yapon dilini öyrəndiyi, yapon mədəniyyəti ilə maraqlandığı, hətta bir çox şeirlərində yapon şairlərinin motivlərinin əks-sədasının yer aldığı qeyd olunur. Həmçinin şairin poeziyasına T.Eliot yaradıcılığının təsirinin böyük olduğu vurğulanır.*

*Poeziya ilə yanaşı, müəllif "Bakılılar" adlı yarımçıq qalmış roman da qələmə almışdır. XX əsrin 80-ci illərinin birinci yarısında qələmə alınmış roman 12 müxtəlif hekayədən ibarətdir. Romandan hissələr "Literaturnıy Azerbaydjan" jurnalında çap olunub (2008, №1).*

***Kitabları:***

- *Эфенди А.Отсутствие. (1996);*
- *Эфенди. А.Сотвори себе остров. -Баку: 2002. (ölümündən sonra)*

Çingiz Akif oğlu Abdullayev
(07.04. 1959, Bakı)



*Azərbaycanın Xalq yazıçısı (12 iyul 2005); Əməkdar incəsənət xadimi, AYB-nin katibidir. Hüquq elmləri doktorudur (1991).*

*Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsində təhsil almışdır (1976-1981). Rus dilində psixoloji və siyasi detektiv janrında əsərlər yazır. Ədəbi fəaliyyətə tələbəlik dövründən başlayıb. XX əsrin 80-ci illərindən dövri mətbuatda oçerk, məqalə və detektiv janrında yazdığı hekayələrlə çıxış edir. Rus dilində yazıb yaradır. Əsərləri xarici ölkə xalqlarının dillərinə tərcümə olunub, Almaniyada, İrlandiyada, Fransada, Rusiyada kütləvi tirajla buraxılıb. Kitabları onu ən məhsuldar müasir yazıçılardan biri kimi tanıdıb.*

*Yazıçının ilk böyük əsəri — "Mavi mələklər" romanı 1988-ci ildə Bakıda işıq üzü görüb. Sonralar trilogiya — "Əclafların qanunu", "Əclafların əqidəsi" və "Əclafların vicdanı" nəşr olunub. "Alqışlar altında ölüm", "Geri dönməmək", "Öz dünyanı yarat", "İnanılmaz qətl", "Atlantika üzərində ölüm", "Xammurapinin məcəlləsi", "Unudulmuş yuxu", "Yalnız özününkilər", "Professionalların oyunları", "Professionalların qaydaları", "Ailə sirləri", "Döyüşçünün yolu", "Məhkumların cənnəti", "Eramızın əvvəlindəki sui-qəsd" və daha yüzlərlə romanın müəllifidir.*

*Ümumilikdə, 140-dan çox roman və povestin müəllifi olduğu, əsərlərinin 27 dilə tərcümə edildiyi, kitablarının ümumi tirajının 26 milyondan çox olduğu qeyd olunur. Yazıçının əsərləri toplu və jurnallarda (rumın, belarus, macar və alman və bir çox başqa dillərdə) çap olunub.*

***Kitabları (ən son çap olunanlar) :***

- *Абдуллаев Ч. Польза похоти: Роман. — Москва: Эксмо, 2014. — 320 с.*
- *Абдуллаев Ч. Испытание добродетели: Роман. — Москва: «Э», 2016. — 320 с.*
- *Абдуллаев Ч. Обычай умирать: Роман. — Москва: «Э», 2017. — 320 с.*
- *Абдуллаев Ч. Торжество хама: Роман. — Баку: Azərkitab, 2019.*
- *Абдуллаев Ч. Урок криминалистики: Роман. — Москва: «Эксмо», 2020. — 320 с.*
- *Абдуллаев Ч. Триумф карьериста: Роман. — Москва: Издательство «Эксмо», 2022. — 320 с.*
- *Абдуллаев Ч. Избыточная мотивация: Роман. — Москва: «Эксмо», 2022. — 320 с.*

Eldar Əlixas oğlu Əhədov
(19.07. 1960, Bakı)



*Yazıçı, Rusiya Yazıçılar İttifaqı və XXI əsrin yazıçıları İttifaqının üzvü.*

*1983-cü ildə Leninqrad dağ-mədən institutunu bitirib. 1986-cı ildən Krasnoyarskda yaşayır. E.Əhədov yaradıcılıq fəaliyyəti ilə yanaşı ixtisası üzrə də işləyir. Qütb arxası sahələrdən tutmuş monqol çöllərinə qədər, Yamaldan Tıvayadək tayqanın və tundranın bütün əlçatmaz yerlərində olub. 10 il ərzində (2000-2010) Krasnoyarsk Diyar Xalq Yaradıcılığı Dövlət Mərkəzinin Ədəbiyyat Birliyinə və korlar və zəif görənlər üçün "Bılina" ədəbiyyat studiyasına rəhbərlik edib.*

*Sibir Yazıçıları Assosiasiyasının Krasnoyarsk Diyar Yazıçılar Təşkilatının (1998), Rusiya Ədəbiyyat Fondunun üzvü, Rusiya Yazıçılar İttifaqının Krasnoyarsk regional bölməsinin (2003-2008) üzvüdür. E.Əhədov 2010-cu ildə "Mirı Eldara" saytını və "Ozareniye" beynəlxalq rusdilli poetik müsabiqəsini yaradıb. Yazıçının əsərləri "Molodaya qvardiya" (Moskva), "Murzilka" (Moskva), "Kukumber", "Sibirskiye oqni" (Novosibirsk),"Neizvestnaya Sibir" (Novosibirsk), "Den i noç" (Krasnoyarsk), "Obskaya raduqa" (Salexard), "Yamalskiy meridian" (Salexard), "Sibiryaçok" (İrkutsk), "Deti Ra" (Moskva) jurnallarında və digər nəşrlərdə dərc edilib. E.Əhədov müxtəlif janrlarda yazılmış 30-dan çox, o cümlədən "Moya azbuka", "Veşşiy son", "Skrijali vetra", "Kamennaya azbuka", "Posmotri mne v qlaza", "Molitva o tebe", "Derjavnıy panteon", "Slavyanskiy panteon", "Nemetskiy panteon", "Kniqa lyubvi", "Puteşestviye oçarovannıx starikov", "Kuyumba", "Vasilkovoye nebo", "Dobrıye skazki", "Severnıye rasskazı i povesti", "Na Kraynem Severe" və digər kitabların müəllifidir. 2012-ci ildə E.Əhədovun beşcildlik seçilmiş əsərləri işıq üzü görüb. Yazıçının iki kitabı ABŞ-da, bir çox əsərləri Bolqarıstan, İsrail, Almaniya, Ukrayna, Qazaxıstan, Belarus və Azərbaycanda nəşr edilib. E.Əhədov milli-regional komponent üzrə "Krasnoyarsk diyarına səyahət" adlı məktəb vəsaitinin həmmüəllifidir. Onun yaradıcılığı haqqında D.Krupskaya, A.Karpenko, V.Antikina, Y.Liquzova, N.Lixtenfeld (Almaniya, Berlin), O.Ruçinski (Ukrayna), İ.Jurakovskaya (Ukrayna) və Y.Tuçiyev kimi ədəbiyyatşünas və tənqidçilər məqalələr yazmışlar. "Neizvestnaya Sibir" jurnalı (№4, 2010)*

*E.Əhədovu Rusiyanın ən istedadlı yazıçılarından biri adlandırıb. Onun "Sənə dua edirəm" əsəri dünyanın 1313 dilinə, o cümlədən ərəb, yunan, ingilis, ispan, Çin dillərinə tərcümə olunub. 2010-cu ildə Rusiya Milli Şöhrət Mərkəzi müqəddəs Apostol Andrey Pervozvannıy adına Fondun dəstəyi ilə E.Əhədov "Svyatost materinstva" Ümumrusiya Ədəbiyyat Müsabiqəsinin qalibi elan edib. E.Əhədovun "Derjavnıy panteon" poeması Milli Şöhrət Mərkəzinin 2011-ci ilin noyabrında nəşr etdiyi "İstoriya Rossii v semeynıx predaniyax" kitabına daxil edilib.*

*E.Əhədov V.M.Şukşin adına "Svetlıye duşi" (2006) Ümumrusiya Ədəbiyyat Müsabiqəsinin, "Serebryanoe pero Rusi" (2007) Milli Ədəbiyyat Mükafatının, "Zolotoye pero Rusi" (2007) Milli Ədəbiyyat Mükafatının, uşaqlar üçün əsərlərə görə "Zolotoy listopad" (Şərqi Sibir, 2008) ədəbiyyat mükafatının, Rusiya Müftilər Şurasının dəstəyi ilə keçirilən "Prorok Muxammed – milost dlya mirov" Ümumrusiya Poeziya Müsabiqəsinin, incəsənətdə mənəviyyat sahəsində "Na blaqo mira" (2012) milli mükafatının və s. laureatıdır. E.Əhədov ümumilikdə 22-dən çox müsabiqə, mükafat, festival, o cümlədən Valeri Qruşin adına Müəllif Mahnısı Ümumrusiya Festivalının (2011, 2 nominasiyada) laureatı və qalibidir.*

***Kitabları.***

- *Собрание сочинений. Том 1. Поэзия. Лирика г. Ливны 2011- 312 с.*
- *Собрание сочинений. Том 2. Проза о Сибири и Крайнем Севере . г. Ливны 2011 - 462 с.*
- *Собрание сочинений. Том 3. Сказки. г. Ливны 2012 -344 с.*
- *Собрание сочинений. Том 4. Проза. г. Ливны 2012 - 414 с.*
- *Собрание сочинений. Том 5. Поэзия. Пантеоны. г. Ливны 2012-286 с.*

## Elmira  Hüseyn qızı Axundova

(26.05.1953, Moskva)



*Nasir, tərcüməçi, publisist, ədəbiyyatşünas, filologiya üzrə fəlsəfə doktoru, əməkdar jurnalistdir. 2003-cü ildə "Şöhrət" ordeni ilə təltif edilmişdir; Azərbaycanın Xalq yazıçısıdır (2018).*

*Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini bitirmişdir (1976).*

*İlk bədii tərcüməsini — Hüseyn İbrahimovun "Nəcibənin ürəyi" hekayəsini 1978-ci ildə, ilk elmi məqaləsini isə 1979-cu ildə "Literaturnıy Azerbaydjan" jurnalında çap etdirmişdir.*

*Müəllifin tərtib və tərcümə etdiyi "Azərbaycanın gənc nəsri" antologiyası 1984-cü ildə "Yazıçı" nəşriyyatında kütləvi tirajla buraxılmışdır. Tərcüməçi, ədəbiyyatşünas, elmi işçi olaraq çalışan Elmira xanım 90-cı illərdə publisistikaya üz tutmuşdur. "Fərmanla əfv edilmişdir..." (2000), "Poliqrafçının ölümü" (2001), "Həqiqət anı" (2003), "Əlövsət Quliyev: o tarix yaradırdı" (2003, şərikli), "Bu bizik" (2003), "Yaşamaq əyyamı" (2003), "İlham Əliyev. Prezidentin portreti dəyişikliklər fonunda" (2016), "Zərifə və Heydər Əliyevlər - Əbədiyaşar məhəbbət" (2023) kitabları (rus dilində) kütləvi tirajla buraxılmışdır.*

*Elmira Axundova 6 cildlik "Heydər Əliyev. Şəxsiyyət və zaman" bioqrafik-tədqiqat romanını müəllifidir. Əsər dövlət tərəfindən yüksək qiymətləndirilərək Dövlət Mükafatına layiq görülmüşdür. Kitabın Rusiyada, Londonda və başqa xarici ölkələrdə təqdimatı keçirilmişdir. Romanın bir çox dillərə tərcüməsi üzərində iş aparılmaqdadır.*

***Kitabları:***

- *Axundova E. Heydər Əliyev. Şəxsiyyət və zaman. Bakı, Ozan, I cild 2007, 352s.*
- *Axundova E. Heydər Əliyev. Şəxsiyyət və zaman. Bakı, Ozan, 2007 II, 784s.*
- *Axundova E. Heydər Əliyev. Şəxsiyyət və zaman. Kreml beşilliyi. III Bakı, Ozan, 2009, 804 s.*
- *Axundova E. Heydər Əliyev. Şəxsiyyət və zaman. Həyat və fəaliyyətinin xronikası 1969-1989, IV Bakı, Ozan, 2008, 327s.*
- *Axundova E. Heydər Əliyev. Şəxsiyyət və zaman. Ömrün Naxçıvan aşırımları. V cild, Bakı, CBS, 2013, 736s.*
- *Axundova E. Heydər Əliyev. Şəxsiyyət və zaman. Qayıdış. VI (1)cild, Bakı, Ozan, 2013, 480 s.*
- *Axundova E. Heydər Əliyev. Şəxsiyyət və zaman. Qayıdış. VI (2) cild, Bakı, CBS, 2013, 496 s.*
- *Axundova E. Sabahımızı düşünərək / E.H. Axundova; tərc. Y. Quluzadə, O. Məmmədov; red. A. Aslanov.- Bakı: CBS, 2014.- 304 c.*
- *Axundova E. Şüşə saray. Siyasi detektiv. Yurd, Bakı, 2008.*
- *Axundova E. Zərifə və Heydər Əliyevlər - Əbədiyaşar məhəbbət. Bakı, 2023.*
- *Ахундова Э. Анар Мамедханов: судьба капитана. Баку, Шарг-Гарб, 2018.*
- *Ахундова Э. Антология поэзии Южного Азербайджана Юрд, 2005 – 499с.*
- *Ахундова Э. Друзей моих прекрасные черты. Баку, CBS, 2011.*
- *Ахундова Э. Ильхам Алиев. Портрет президента на фоне перемен. Москва, Политическая энциклопедия, 2016.*
- *Ахундова Э. Иса Наджафов. Смерть полиграфиста.- Баку: Дом сказки, 2001.*
- *Ахундова Э. Мгновения истины. - Баку: Дом сказки, 2003, 516 с.*
- *Ахундова Э. Помилован указом. - Баку: Азернешр, 2000, 176 с.*
- *Ходжалы: хроника геноцида. - Баку: Азербайджанское гос. изд-во, 1993.*
- *Ахундова Э. Это-мы. - Баку: Дом сказки, 2003, 672с.*

## Elçin Səfərli
(12.03. 1984, Bakı)




*Yazıçı, jurnalist.*

*Azərbaycan Beynəlxalq Universitetinin jurnalistika fakültəsini bitirib. "Exo" qəzetində çalışıb. Uzun illər İstanbulda yaşayıb.*

*2011-ci ildə Elçin Səfərli haqqında rejissor Sergey Saraxanov tərəfindən qısametrajlı film çəkilmişdir. Əsərləri məktəb dərsliklərinə salınıb (Литература. Учебник для 11- классов общеобразовательных заведений. – Баку: Şərq-Qərb, 2023).*

***Kitabları:***

- *Сафарли Э. Сладкая соль Босфора. -Москва: АСТ, 2008*
- *Сафарли Э Туда без обратно. -Москва: АСТ, 2008*
- *Сафарли Э. Я вернусь. -Москва: АСТ, 2009*
- *Сафарли Э. Мне тебя обещали. -Москва: АСТ, 2010*
- *Сафарли Э. ...нет воспоминаний без тебя. -Москва: АСТ, 2010.*
- *Сафарли Э. Если бы ты знал.... Москва: АСТ, 2012.*
- *Сафарли Э. Рецепты счастья — Москва: АСТ, 2013.*
- *Сафарли Э. Я хочу домой — Москва: АСТ, 2015.*
- *Сафарли Э. Расскажи мне о море» — Москва: АСТ, 2016,*
- *Сафарли Э. Когда я вернусь, будь дома» — Москва: АСТ, 2017.*

- *Сафарли Э. Дом, в котором горит свет» — Москва: АСТ, 2019.*
- *Сафарли Э. Тут мой дом» — Москва: «АСТ», 2023.*

Elizabet Tüdor (Lalə Həsənova)
(26.07. 1978, Bakı)



*Yazıçı-fantast, Azərbaycan Yazıçılar Birliyinin üzvü (2002).*

*Bakı şəhərində anadan olub. Azərbaycan Beynəlxalq Universitetinin hüquqşünaslıq fakültəsini bitirib. Bədii yaradıcılığa uşaq yaşlarından başlayan Lalə Həsənova 1994-cü ildən fantastika janrında əsərlər qələmə alır. 1998-ci ildən özünü bədii yaradıcılığa həsr edib.*

*İlk kitabı – "Zamanların savaşı" 2001-ci ildə ("Azərnəşr") işıq üzü görüb. Müəllifin, həmçinin macəra və fantastika janrında yazdığı hekayələrdən ibarət "Qatil Çuopakabra" kitabı çap olunub (2001). "Səmaların seçilmişləri"(2002), "Xəzərin sualtı sirləri" (2003), "Kolliziya" (2007) romanlarının müəllifidir. 2008-ci ildən isə Lalə Həsənova 12 xilaskar qəhrəmandan bəhs edəcək 12 cildlik silsilə romanlar yazmağa başlayıb. Onların arasında "Kevin Konnor", "Aron Şmuel" kimi əcnəbi qəhrəmanlar olmaqla yanaşı, həm də azərbaycanlı Abbas Ələkbərov obrazı da var. Abbas Ələkbərovun macəralarından bəhs edən elmi-fantastik roman 2014-cü ildə işıq üzü görüb.*

*Hazırda ABŞ-də Mayami şəhərində (Florida ştatında) yaşayır. 20-dən artıq kitabın müəllifi olan həmvətənimiz Beynəlxalq "Broad Universe" fantast-yazıçılar təşkilatının və "Beynəlxalq Rusdilli Yazıçılar Federasiyası"nın üzvüdür.*

https://az.wikipedia.org/wiki/Elizabet_T%C3%BCdor#cite_note-newaz-1

Əfruz Məmmədova



*İxtisasça musiqişünasdır, sənətşünaslıq üzrə fəlsəfə doktorudur. Bakıda doğulub, Hal-hazırda Kanadada yaşayır.*

*Hekayələr, şeirlər müəllifidir.*

## Əkrəm Məlikov

(1946-2016, Bakı)



*Şair, Azərbaycan Yazıçılar Birliyinin üzvü.*

*İxtisasca tarixçi olub. V.İ.Lenin adına Azərbaycan Pedaqoji İnstitutunu (indiki Azərbaycan Dövlət Pedaqoji Universitetini) bitirib. AMEA Tarix muzeyində (indiki Milli Azərbaycan Tarixi Muzeyi) elmi işçi vəzifəsində çalışıb."Rodnik" ədəbi birliyinin üzvü olub. Azərbaycanın rusdilli dövrü orqanlarında "Vışka"qəzetində, "Literaturnıy Azerbaydjan", "Molodost" jurnallarında çap olunub. Şeirləri NLO ("Novovoskovskoe Literaturnoe Obyedinenie") almanaxında (2005), "Rodnik" ədəbi birliyinin toplularında (Bakı 1998, 2001, 2005) yer alıb.*

***Kitabları:***

- *Меликов Э. Неуслышанный крик. -Санкт-Петербург: 1998.*
- *Меликов Э. Бульвар-вселенная. -Баку: 2000.*
- *Меликов Э. Ноддегампа –Рок. -Баку: 2001.*
- *Меликов Э. Стихи белокурого бестии. -Баку: 2002.*
- *Меликов Э. Настежь. -Баку: 2004.*
- *Меликов Э. Кресть судьбы. -Баку: 2005*

## Ələddin Qaraxan oğlu Yaqubov
**(1956, Bakı)**



Azərbaycan və Rusiya Yazıçılar Birliyinin, Bakı müəllif mahnıları Klubunun üzvü, şair və ifaçıdır.

Keçmiş hərbiçi, Əfqanısatn və Birinci Qarabağ müharibəsi veteranıdır. Şeirlər və hekayələr müəllifidir. Öz mahnılarını özü ifa edir. Ə.Yaqubov Rusiyanın Beynəlxalq poeziya müsabiqəsi olan "Yüklsəliş" («Восхождение»), Lermontov şəhərində keçirilən XVIII Beynəlxalq müəllif mahnısı və poeziya festivalının, Samara şəhərində keçirilən V.Qruşin adına Beynəlxalq müəllif mahnısı və poeziya festivalının (2021) laureatıdır.

**Kitabları:**

Ягубов А. "Позовите Бога». Баку.

Ягубов А. «Смычок судьбы». -Баку:Nurlan, 2015, 220с.

Ягубов А. «Пока в груди горит огонь» -Коломна, Россия.

## İqor Yuryeviç Revva
(13.10.1965- 06.03.2022, Bakı)



*Bakı şəhərində anadan olub. İxtisası texniki sahə ilə bağlı olsa da, uzun müddət yerli mətbu orqanlarda jurnalist, redaktor olaraq fəaliyyət göstərib.*

*İlk hekayəsi ("Nasledstvo") 1991-ci ildə çap olunub. Kitabları Rusiyanın "Alfa-kniqa", "AST" kimi tanınmış nəşriyyatı tərəfindən çap olunub. Əsasən fantastika janrına üstünlük versə də, fentezi, detektiv janrında da əsərlər yazan İ.Revva 11 roman ("Poslednee zaklyatie" (Alfa-kniqa, 2002), "Sila bessmertnıx" (Alfa-kniqa, 2003), "Bessmertnıy princ" (Alfa-kniqa, 2003), "Vıbor" (2003), "Konec sveta", "Zona vlasti" (Alfa-kniqa, 2004), "Starıe dolqi", "Poliseyskiy patrul", "ispıtatelnıy srok" (Azbuka klassiki, 2006), "Vlast proklyatiya" (Alfa-kniqa, 2005) , "Marsianskiy patrul" (Eksmo, 2009) və s., 6 povest ("Vozvraşenie", "Ucurumatxan" ("Учурумматхан"), "Qolubka", "Povodok" və s. ) və xeyli sayda hekayələr müəllifidir.*

*2017-ci ilə qədər "Cənub üçbucağı" ("Южный треугольник") Bakı Fantastları Klubunda (bir dəfə Kiyev şəhərində) ustad dərsləri verib. Əsərləri [https://author.today/work/160040](https://author.today/work/160040) saytında yerləşdirilib.*

***Kitabları:***

- *Ревва И. Бессмертный принц. -Москва: Альфа-книга, 2002.*
- *Ревва И. Вершитель судеб. -Москва: Эксмо, 2008.*
- *Ревва И. Власть проклятии. Альфа-книга, Армада, 2005.*
- *Ревва И. Выбор, АСТ, Ермак, 2003.*
- *Ревва И. Зона власти. Армада, Альфа-книга, 2004.*
- *Ревва И. Испытательный срок, Азбука-классика, 2006.*

- *Ревва И. Марсианский патруль. -Москва: Эксмо, 2009.*
- *Ревва И. Последнее заклятие, Армада, Альфа-книга, 2002.*
- *Ревва И. Сила Бессмертных. Армада, Альфа-книга,  2003.*

İvan Polikarpoviç Tretyakov

(1922, Arxangelsk vilayəti – 2008, Bakı)



*Nasir, tərcüməçi, tənqidçi, publisist. Azərbaycan Yazıçılar Birliyinin (1959), Jurnalistlər Birliyinin üzvü (1980), Azərbaycanın Əməkdar incəsənət xadimi (1981).*

*İkinci dünya müharibəsi zamanı döyüşlərin birində ağır yaralanmışdır. Müalicə olunmaq üçün Bakıya hospitala gətirilmişdir. Uzun müddət müalicə olunmuşdur (1945-1947). Ordudan tərxis edildikdən sonra Bakı Sovetinin mədəni-maarif işləri şöbəsinin inspektoru (1948-1951), Azərbaycan Baş Mətbuat İdarəsində redaktor işləmişdir (1960-cı ilədək). Eyni zamanda, Bakıda qiyabi orta məktəbi bitirib, Azərbaycan Dövlət Pedaqoji İnstitutunda təhsil almış (1953-1958), "Literaturnıy Azerbaydjan" jurnalı redaksiyasına məsul katib təyin edilmişdir (1960-1961). Sonra həmin jurnalın baş redaktoru işləmişdir (1961-1991). Ədəbi fəaliyyətə 1955-ci ildə "Literaturnıy Azerbaydjan" jurnalında çıxan ilk hekayəsi ilə başlamışdır. Dövri mətbuatda hərbi vətənpərvərlik mövzusunda yazdığı hekayə və povestləri müntəzəm çap olunmuşdur. Azərbaycan ədəbiyyatından 25-dək roman və povesti rus dilinə tərcümə etmişdir. Onun ədəbi-tənqidi məqalələri, oçerk və rəyləri "Literatunaya qazeta", "Komsomolskaya pravda", "Krasnaya zvezda" qəzetlərində, "Drujba narodov", "Naş sovremennik", "Literaturnoe obozrenie", "Kommunist Voorujonnıx sil" və digər jurnallarda çap olunmuşdur. Döyüş və ədəbi-ictimai xidmətlərinə görə "Qırmızı ulduz", "Xalqlar dostluğu" və I dərəcəli "İkinci dünya müharibəsi" ordenləri, 12-dən çox medal, Azərbaycan və Ukrayna Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanları, partiya, dövlət, həmkarlar və hərbi təşkilatların tərifnamələri ilə təltif olunmuşdur. "Sovetskiy voin" və "Naş sovremennik" jurnallarının ədəbi mükafatı laureatı olmuşdur (1982). 30-dan çox kitab müəllifi olan İvan Tretyakov, xeyli sayda hekayə, povest və roman müəllifidir.*

## Laçın Səmədzadə (Laçın)

(30.07.1972, Bakı)



*Bakıda anadan olub. İxtisasca sənətşünasdır. Azərbaycan Mədəniyyət və İncəsənət Universitetinin məzunudur (1996). Bir müddət Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında müəllim olaraq çalışıb (2001-2009). "Cənub üçbucağı" adlı Bakı fantastları Klubunun üzvü olub. 1990-cı illərdən bədii yaradıcılıqla məşğuldur. Hekayə və novellalar, miniatürlər, şeirlər, tənqidi məqalələr, fəlsəfi, dram əsərlərinin müəllifidir. "Kama, rəqs et!" hekayəsi Sofiyada keçirilən "Zlata kan" Beynəlxalq fantastika müsabiqəsində birinci yerə (2009), Rusiya səfirinin Ədəbi mükafatına layiq görülüb (2013). "Novaya literatura" (Vladivostokda çap olunur) ədəbi-bədii jurnalının ən populyar müəlliflərindəndir. İki hekayə toplusunun müəllifidir.*

## Leyla Bəyim (Cəfərova)

(16.11. 1971, Bakı)



*Şair, dramaturq, nasir. Azərbaycan Yazıçılar* Birliyinin, *Avropa Ədibləri Konqresinin və Çexiyanın* Rusdilli *Yazıçılar İttifaqının üzvü, "Natəvan" cəmiyyətinin rəhbəri, Şərqi Avropa Azərbaycanlıları Koordinasiya Şurasının Çexiyadakı əlaqələndiricisidir.*

*1988-ci ildə Azərbaycan Neft və Kimya İnstitutunu bitirib. 2000-ci illərdə Praqaya köçüb, hal-hazırda orada yaşayır. Bir neçə şeirlər* toplusunun *müəllifidir («Альфой и омегой ты мне дорог», Челябинск, 2010), «Сезоны любви» (Челябинск, 2011), «Венки сонетов», «Это город твой дышит», Москва, 2015). "Qarabağa ağı" («Плач по Карабаху») poemasının müəllif* olan *şair həm xalqımızın* tarixinə, *həm də ölkəmizdə* son *illərdə yaşanan tarixi proseslərə, xalqımızın faciələrinə dəfələrlə müraciət etmişdir. Yazıçının (Efim Abramovla birgə) "Qara qar çiçəyi" povestində Xocalı hadisələrinin şahidi, bu faciədə* ailə *üzvlərini itirmiş Natəvanın taleyi əks olunmuşdur.*

*Leyla Bəyim həm də (Yefim Abramovla birgə)* bir *neçə* pyesin *müəllifidir: "Xəyalpərəst oğlanlar" (2017), "İmmolatio" (Qurban) (2018) , "At gedişi" (2019), "Böyük köpək bürcü" (2019)* və s.

*Postmüharibə dövründə bir necə əsər qələmə alan Leyla Bəyim zəfər sevincini oxucuları ilə paylaşmağa çalışmışdır. Müharibə günlərində şair "27 sentyabr" şerini qələmə almış, Şuşaya şeir həsr edərək ("Şuşa") Cıdır düzündə səsləndirmişdir. Bu mövzuda "Mən də sevirəm" (2021) povestini yazmışdır.*

*Əsərlərini rus dilində qələmə alan L.Bəyimin yaradıcılığı həm xarici dillərə, həm də ana dilinə tərcümə edilərək geniş oxucu kütləsinə təqdim edilir. Müəllifin əksər əsərləri ölkəmizin teatrlarında səhnələşdirilmişdir.*

***Kitabları:***

- *Бегим Л. Альфой и омегой ты мне дорог. -Челябинск: Фрегат, 2010.*
- *Бегим Л. Сезоны любви. -Челябинск: Фрегат, 2010.*
- *Бегим Л. Венки сонетов.  На двух языках  (русском и чешском).*
- *Бегим Л. Это город твой дышит: стихотворения. -Москва, Фрегант, 2015.*

## Leyla İlham qızı Əliyeva

(*3.07. 1984, Moskva*)



*İctimai xadim, şairə, 2007-ci ildən Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin rəhbəri, «Baku» jurnalının təsisçisi və baş redaktoru, 2011-ci ildən Heydər Əliyev Fondunun vitse-prezidenti, İslam Əməkdaşlıq Təşkilatı Gənclər forumunun mədəniyyətlərarası dialoqunun baş koordinatoru, Rusiyadakı Azərbaycanlı Gənclər Təşkilatının (AMOR) sədri, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilik Şurası üzvü, Ətraf mühitin mühafizəsi naminə beynəlxalq dialoq ictimai birliyinin (IDEA) təsisçisi və sədridir.*

*Orta məktəbi bitirdikdən sonra Avropa Biznes Məktəbinə (ESB) daxil olub. İsveçrə və Böyük Britaniyada təhsil aldıqdan sonra 2006–2008-ci illərdə Rusiyada Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda politologiya fakültəsində dünya siyasəti üzrə magistr təhsili alıb.*

*Leyla Əliyeva rəssamlıq, rejissorluq kimi sahələrlə yanaşı şeirlər də yazır. Şairənin babası Heydər Əliyevə həsr etdiyi Elegiya şeiri orta məktəblərin 5-ci sinif ədəbiyyat dərsliklərinə salınmışdır.*

*Leyla Əliyevanın "Sanki bir alovsan" şeirlər toplusu (Ankara, 2019) Türkiyənin nüfuzlu "BENGÜ" yayınları brendi ilə oxuculara təqdim olunan "Azərbaycan ədəbiyyatı"nın seçilən nəşrləri sırasına daxildir. Onun "Dünya yuxutək əriyir…" şeirlər kitabı Bakıda Azərbaycan dilində (2016), Tehranda fars dilində (2018), Londonda ingilis dilində (2016, Hertfordshire Press LTD), "Ulduzlar göylərdə düzülsəydi sırayla" kitabı Moskvada rus dilində (2016, AST), Minskdə belarus dilində (2016, Zvezda) nəşr olunub və geniş oxucu kütləsinin sevgisini qazanıb.*

*Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin layihəsi ilə Heydər Əliyev Fondunun vitse-prezidenti, şairə Leyla Əliyevanın "Dünya yuxutək əriyir…" şeirlər kitabı Özbək dilinə tərcümə olunaraq Daşkənddə çap olunub (2018, Kamalak).*

*Müəllifin şeirlərinə çəkilmiş videoçarxlar, öz ifasında, youtube kanalında səsləndirilmişdir.*

***Kitabları:***

- *Əliyeva L. "Dünya yuxu tək əriyir". Bakı, 2016.*
- *Алиева Л. "Если б звезды ступеньками стали". Москва, АСТ, 2016.*
- *Алиева Л. «Ліст». Минск, (перевод с русского языка на белорусский язык Татьяны Сивец). Сборник стихов, «Звязда», 2016.*
- *Aliyeva L. «The World Dissolves like a Dream», London, 2018.*
- *Алиева Л. «Мир растворяется подобно сну…». Ташкент, «КАМАЛАК», 2018 (на узб.яз).*
- *Алиева Л.Мир растворяется подобно сну…". Тегеран, 2018 ( на фарсид. яз.)*
- *Алиева Л. «Хочу услышать голос Бога». Бишкек, 2020 (на кирг. и русс. языках).*
- *Алиева Л. «Открытое окно», Palladium Kirjat (Финляндия) (на финском языке), 2021.*
- *Алиева Л. «Мир тает словно сон». Катар, 2022 (на араб. яз.).*

## Ləman Sərhəd qızı Bağırova
(06.08. 1969, Bakı)



***(soldan ikinci)***

*Azərbaycan və Rusiya Yazıçılar Birliyinin üzvüdür.*

*M.F.Axundov adına Azərbaycan Pedaqoji Rus dili və ədəbiyyatı İnstitutunun məzunudur (1991). 2012-ci ildən çap olunmağa başlamışdır. Şeirlər, esselər və hekayələr müəllifidir. Bu illər ərzində altı kitabı işıq üzü görmüşdür. Bunlardan ikisi "Yaddaş ipi" (2015), "Si notu" (2016) Vilnyusda nəşr edilib.*

*Ləman Bağırova müxtəlif ölkələrdə (Rusiya, Bolqariya, Belarus, Ukrayna) keçirilən müsabiqələrin iştirakçısı olmuşdur. Rusiyada keçirilən "Ağ akasiya" (2015) müsabiqəsində birinci dərəcəli laureat, Ukraynada keçirilən Beynəlxalq ədəbiyyat müsabiqəsində («Созвездие Духовности») «Kiçik nəsr» nominasiyasına layiq görülmüş, Avropa Ədəbiyyatçılar Konqresinin (Çexiya) və Gürcüstanın Yazıçılar Birliyinin Diplomu ilə təltif edilmişdir. Azərbaycanda rus dilinin inkişafında xidmətlərinə görə, Rusiya səfirinin Ədəbiyyat mükafatına layiq görülüb (2017).*

## Marat Şəfiyev
(1963, Bakı)



*Şair, nasir, esseist. AYB-nin üzvüdür.*

*“Sodrujestvo” ədəbi* birliyinin *yaradıcısı və* ilk *sədri* olub. MDB *Parlamentlərarası Assambleyası tərəfindən “Mədəniyyətin və incəsənətin inkişafında xidmətlərə görə” medalı ilə təltif edilmişdir. Beş kitabın müəllifidir- “Proşalnıy luç”* (2000), *«İ luçşe bıt ne mojet” (“И лучше быть не может», 2006) и “Çerspolosica” («Чересполосица», 2006) nəsr topluları, “Aritmiya” (“Аритмия”). Sonuncu kitabı “Xronika odnoqo desyatiltiya” 2020-* ci ildə *çap olunub. “Mec i pero”, “Sotvorenie mifa”, “Qorı Kafkaza, ya vam ne cujoy” (Bakılı müəlliflərin* Lermontov *haqqında əsərləri), “Zdravstvuy, Baku!” (Yesenin), “Luçşee” ("Лучшее") almanaxlarının tərtibçisi, “Xayku na volnax Xazara” müsabiqələrinin təşkilatçısı olub.*

*Rusdilli poeziyamızın tarixi (“Краткая история русскоязычной бакинской поэзии») ilə bağlı tədqiqat üzərində işləyir. "Literaturnıy Azerbaydjan" jurnalında bu mövzuda qələmə aldıqları məqalələri çap* olunur.

***Kitabları:***

1. *Шафиев М. Хроника одного десятилетия* (2010-2018). *-Баку:* 2020, *72с.*
2. *Шафиев М. Краткая история русскоязычной бакинской прозы. -Баку: Мутарджим, 2023-136с.*

## Marina Mürsəlova



*Leninqrad (indiki Sankt-Peterburq) şəhərində anadan olub. 2000-ci illərdən başlayaraq jurnalistika sahəsində fəaliyyət göstərir. 2018-ci ilə qədər (15 il ərzində) AYB nəzdində yaradılan rusdilli ədəbiyyat assosiasiyasının məsul katibi olub. 2007-ci ildə "Piar diktatora" hekayələr toplusu "Russkaya premiyanın" qısa siyahısına daxil eidlib. Mütəmadi olaraq "Literaturnıy Azerbaydjan" jurnalında və "Luç" ədəbi birliyinin toplularında çap olunur. İki kitabı çap olunub "Za vse nado platit" (2005), "Tabula rasa" (2017). "Tabula rasa" tarixi romanına görə Molla Pənah Vaqif mükafatına layiq görulüb, YUNESKO -nun Fəxri Fərmanı və MDB Parlamentlərarası Assambleyası tərəfindən "Mədəniyyətin və incəsənətin inkişafında xidmətlərə görə" medalı ilə təltif edilmişdir. "Luç" ədəbi yaradıcılıq assosiasiyası tərəfindən çap olunmuş kitabların – "Okno v vecnost" (2016), "Solnecnıy veter" (2017), "Novruz moey duşi" (2017) və b. tərtibçisi, redaktoru olmuşdur.*

*Hal-hazırda "Nargiz" jurnalında çalışır.*

***Kitabları:***

- *Aleksa May. Tabula Rasa. -Bakı: Elm və təhsil, 2016.*

## Mənsur Fəxri oğlu Vəkilov
(7.09.1939 – 2009, Bakı)



*Şair, tərcüməçi, ssenarist, jurnalist. Əməkdar incəsənət xadimi (2003), Literaturnıy Azerbaydjan" jurnalının baş redaktoru.*

*1961-ci ildə Azərbaycan Dövlət Universitetini bitirmişdir (1961). Azərbaycan Yazıçılar Birliyinin orqanı olan "Literaturnıy Azerbaydjan" jurnalında çalışmış (1963-cü ildən), ədəbi işçidən baş redaktora kimi böyük bir yol keçmişdir. Azərbaycan Yazıçılar Birliyinin katibi olmuşdur. Onun əsərləri ukrayna, gürcü, latış və digər xalqların dillərinə tərcümə olunmuşdur. Onun şeirlərini rus dilindən doğma dilimizə S.Məmmədzadə, N.Həsənzadə, F.Qoca, Ə.Muxtar, Ç.Əlioğlu tərcümə etmişlər.*

*Mənsur Vəkilov həm də tərcüməçilik fəaliyyətilə məşğul olmuş, Səməd Vurğun, Hüseyn Arif, Vaqif Səmədoğlu, Əbülhəsən, Bəxtiyar Vahabzadə, Əli Kərim, Fikrət Qoca, Sabir Əhmədov, Vaqif Musa, Əkrəm Əylisli, Çingiz Əlioğlunun bir sıra əsərlərini rus dilinə tərcümə etmişdir.*

***Əsərləri:***

***Rus dilində:***

*Vəkilov M. Seirlər (1970)*

*Vəkilov M. Avar səsi (1970)*

*Vəkilov M. Son etiraf (1977)*

*Vəkilov M. Qarşıdan atılan güllə (1980)*

*Vəkilov M. Lirika (2002)*

***Azərbaycan dilində:***

*Vəkilov M.  Payız uçuşu (1983).*

## Mixail Salman

**(1950, Bakı)**



Azərbaycan və İsrail Yazıçılar Birliyinin üzvüdür. 1990-cı ildən İsraildə yaşayır.

M.Salman  Bakı Dövlət Universitetinin Tarix fakültəsini bitirib (1984).

Yaradıcılığa erkən yaşlarından başlayıb. Müxtəlif qəzet və jurnallarda, o cümlədən “Ədəbi Azərbaycan”da çap olunub. Şeirləri İsrail, Azərbaycan, Ukrayna, Rusiya, ABŞ və Almaniyanın dövri mətbuatında dərc olunur.  Azərbaycana həsr edilmiş "Azərbaycan eşqi ilə" və “Müzəffər Azərbaycan” (2022) şeir kitabları dərc olunub.

“Bu kitab ona görə vacibdir ki (“Müzəffər Azərbaycan”- L.H.) burada yerləşdirilən şeirlər Azərbaycanın 44 günlük müharibədəki qələbəsi ilə bağlıdır. Müharibə boyu elə bir gün olmayıb ki, mən hər hadisəyə bir şeir həsr etməyim. Azərbaycan qəhrəmanlarının hər addımı məndə eyforiya yaradırdı və mən bütün hisslərimi kağıza köçürdürdüm ” (M.Salman).

Mixail Salman “Azİz” İsrail-Azərbaycan  Beynəlxalq Assosiasiyasının idarə heyətinin üzvüdür.

https://az.wikipedia.org/wiki/Mixail_Salman#cite_note-sakl-4

Murad Maqsud oğlu İbrahimbəyov

(12.03.1965)



*Rejissor, ssenarist, aktyor, prodüsser, yazıçı. Azərbaycan Kinematoqrafçılar İttifaqının üzvü, Dağıstan Respublikasının əməkdar incəsənət xadimi.*

*Bakı şəhərində, İbrahimbəyovlar ailəsində (Maqsud İbrahimbəyovun oğludur) dünyaya göz açıb. 134 №li orta məktəbin məzunudur. Sonradan təhsilini Rusiya Dövlət Kinematoqrafiya İnstitutunun rejissorluq fakültəsində davam etdirmişdir (S.Qerasimov və İ.Talankinin kursu, 1982-1989- cu illər). 1991-ci ildən etibarən "İbrus" kino şirkətinin müstəqil prodüseridir. 1995-ci ildən reklam sferasında çalışır və bir neçə reklam çarxının müəllifidir. 1997-ci ildən "Yeralaş" ("Ералаш") kinojurnalı üçün süjetlər çəkir. Əsasən kino sahəsində fəaliyyət göstərən Murad İbrahimbəyov bu sahədə mühüm nailiyyətlər əldə edib. 1995-96-cı illərdə "İlin rejissoru", Rusiyanın "Yaşıl alma, qızıl yarpaq" mükafatına, "Kinoşok"un və kinotənqidçilərin "Ədəbiyyat və kino" festivalının mükafatlarına layiq görülüb. Venesiya Beynəlxalq Film Festivalının qısametrajlı filmlər müsabiqəsinin "Gümüş Aslan" (2003), Rusiyanın 'NİKA" kino mükafatlarına layiq görülmüşdür (2003). Hal-hazırda tammetrajlı "ANAMA" sənədli filmi üzərində işləyir.*

*Orta məktəb illərindən hekayələr yazmağa başlayıb. Azərbaycanın ("Baku", "Molodej Azerbaydjana", "Literaturnıy Azerbaydjan") və Rusiyanın ("Literaturnaya qazeta", "Drujba narodov" və b.) dövrü nəşriyyatında çap olunur. Bir neçə kitabın müəllifidir.*

*Müxtəlif illərdə yazıçının "Şəbəkə (Xalq sənəti və qəribə şahzadə haqqında hekayət) (2016)", "Antropoloqun son səyahəti" ("Otyezd antropoloqa") (2018) povestləri, "Tıko Vılka" ("Дружба народов", 2017, №1), "Valideyn günü", "Leninin sinaqoqun qapısını bağlaması" hekayələri çap*

*olunmuşdur. Müəllifin ilk romanı - "Madaqaskar Qitler podaril nam stranu" Rusiyada "Roman-qazeta" jurnalında çap olunub ( 2020, № 19).*

*M.İbrahimbəyovun bir neçə əsəri ("Leninin sinaqoqun qapısını bağlaması", "Antropoloqun son səyahəti") Azərbaycan ədəbiyyatında o qədər də yer almayan sos-art üslubunda yazılmışdır. "Şəbəkə" povesti isə xalqımızın folklorunu, tarixini, sufi motivləri ehtiva edən nağıl-povest olaraq qiymətləndirilə bilər. Bu iki xətt müəllifin yaradıcılığında həm ən yeni, həm də ənənəvi nəsr xüsusiyyətlərinin ehtiva olunduğunu göstərir.*

***Kitabları:***


*Ибрагимбеков М. Отъезд антрополога. -Баку: Азернешр, 2019, 392с.*

*Ибрагимбеков М. «Мадагаскар. Гитлер подарил нам страну…». -Москва: АСТ, 2022, 270с.*

Nadir Süleyman oğlu Ağasıyev

(1948-2021, Bakı)



*Azərbaycan Yazıçılar Birliyinin üzvü.*

*M.Qorki adına Ədəbiyyat İnstitutunun məzunu* olub. 40- il*dən çox "Literaturnıy Azerbaydjan" jurnalında çalışıb. Ömrünün son illərində jurnalın nəsr şöbəsinin müdiri olub. "Otrajeniye-1" (2016) və "Otrajeniye-2" (2018) (kitab variantında əsər "V qorode dobroqo dnya" (2020) başlığı ilə çap olunub) romanlarının müəllifidir. Əsas personajın assosiasiyaları üzərində* qurulan *əsərlər maraqlı psixoloji nəsr nümunələri olaraq maraq doğurur.*

***Tərcümələri:***

*Джамалзаде Г. "Золотой осленок". Роман. Baku, 2016 (Перевод с азербайджанского языка: Надир Агасиев, Медина Агасиева, Борис Кутуков).*

Natiq  Rəsul oğlu Rəsulzadə

(05.06.1949, Bakı)



*Yazıçı, tərcüməçi. Azərbaycan Yazıçılar Birliyinin, Kinematoqrafçılar və Teatr Xadimləri İttifaqının üzvüdür (1979). Azərbaycanın əməkdar incəsənət xadimi (1999), Respublika Dövlət mükafatı laureatıdır. 2009-cu ildə "Şöhrət" ordeni ilə təltif edilib, Azərbaycan Respublikasının Xalq yazıçısıdır (2019).*

*Mətbuatda gənc yaşlarından çap olunmağa başlamışdır. Moskvada Maksim Qorki adına Ədəbiyyat İnstitutunu bitirmişdir (1975). "Kabuslar arasında" (1989), "Xonxarlar", "Qolfstrim" (2015) romanlarının, "İntihar edənin gündəliyi" (1990), "Gecə çaparı", "Ev" (1999), "Nonsens" (1989), "Dostum Mika" (2020) povestlərinin, "Adacıq", "Xor adamı" pyeslərinin, "Quş çəkirəm" (1982), "Məhəbbət ili" (1983), "Bayramda yağan yağış" (1999), "Tələ" (2009) kimi onlarla hekayələrin müəllifi olan Natiq Rəsulzadənin ssenariləri əsasında "Mələklərə inanmayın", "Bayramda yağış", "Yaşa qızıl balıq", "Vahimə", "Sifarişçi", "Gecə qatarında qətl", "Nə gözəldir bu dünya...", "Girov", "Ovsunçu", "Biz qayıdacağıq" filmləri çəkilmişdir. Əsərləri bir çox ölkələrdə çap olunur. Azərbaycanda, ABŞ da, Rusiyada, Macarıstanda, Yuqoslaviyada, Polşada və başqa yerlərdə 40-dan artıq kitabı işıq üzü görüb. Bir çox nüfuzlu milli və beynəlxalq ədəbi mükafatlar laureatıdır. 1984-cü ildə N.Ostrovski adına Ümumittifaq Mükafatına layiq görülüb.*

Nərminə Məmmədzadə



*Şair, yazıçı. Azərbaycan Yazıçılar Birliyinin üzvü, "Qızıl qələm" (2014) mükafatı laureatıdır.*

*Bakıda anadan olub. Bakı Dövlət Universitetinin Beynəlxalq hüquq fakültəsini bitirib. 2011-ci ildə "Bir ruhun dörd fəsli" adlı ilk şeir toplusu nəşr olunub. Kitabda şeirlər mövsümlərə (Bahar - Ümid, Yaz - sevgi, Payız - xatirələr, Qış - başlanğıc) görə bölünür, hər biri bir qadın şəklində təsvir olunur. 2012-ci ildə "Selsi haqqında xatirələr" adlı kitabında qısa hekayələri və povestləri yer alıb. 2014-cü ildə debüt romanı olan "Taroki" nəşr olunub. "Taroki" romanına görə "İlin ən yaxşı kitabı" Alman Beynəlxalq Ədəbi Müsabiqəsində bürünc laureat diplomu almışdır. 2017-ci ildə "Dourun yeddinci kuklası" romanı çap olunub.*

*Bir çox müəlliflər kimi Nərminə Məmmədzadə müharibə dövründə, qələbə ərəfəsində yaşanan hadisələri həssaslıqla izləyərək bu mövzuda qələmə aldıqları əsərlərini "isti-isti" oxucuları ilə bölüşmüşdür. Müəllif qələbəmizdən bir neçə həftə öncə qələmə aldığı "Həmin gün uzaqda deyil...Qələbə günü" üç uşaqlıq dostundan bəhs edən miniatür –hekayəsini, "Məni tək buraxma" (7 noyabr) şeirini elə həmin ərəfədə sosial şəbəkədə yerləşdirmişdir.*

*Yazıçı-şairə Nərminə Məmmədzadənin "Baş tutmayan müsahibə" başlıqlı esselər silsiləsi İkinci Qarabağ müharibəsində şəhid olmuş əsgərlərimizin xatirəsinə həsr olunmuşdur. Azərbaycan dilində qələmə alınmış, esselər sonradan rus və ingilis dilinə tərcümə olunaraq ayrıca kitab şəklində ("Müharibənin səsi" (2021) çap olunmuşdur. Şəhid olmuş insanlarla qarşılaşma, ruhla görüş olaraq qələmə alınmış bu esselərdə, yazar həyatı, arzuları yarıda qalmış insanlar haqqında bioqrafik məlumat verməyə deyil, daha çox onların hisslərini, düşüncələrini ifadə etməyə, bir sözlə psixoloji portretini yaratmağa, bitmiş talelərə yeni həyat verməyə çalışmışdır. Kitabda 50-dən çox müsahibə yer almışdır.*

***Kitabları:***

- *Məmmədzadə N. Bir ruhun dörd fəsli. -Bakı:  2011.*
- *Məmmədzadə N. Selsi üzrə xatirələri, - Bakı: 2012.*
- *Məmmədzadə N. Müharibənin səsi.- Bakı: 2021.*

## Nicat Məmmədov

(23.02.1982, Bakı)



*Şair, esseist, nasir, tərcüməçi. Azərbaycan Yazıçılar Birliyinin üzvüdür, bir çox müsabiqələrin laureatıdır. «Karta yazıka» (2010), "Mesto vstreçi povsyudu" (M, 2013) və "Neprerıvnost" (HH.: Free Poetry, 2018) kitabları çap olunub. Şəmşad Abdulla, Arkadi Draqomoşenko, Aleksandr İlişevski, Aleksandr Skidana və başqa xariçi müəlliflərin əsərlərini Azərbaycan dilinə, azərbaycanlı müəlliflərin əsərlərini rus dilinə tərcümə etmişdir. Dəfələrlə beynəlxalq mükafatlara layiq görülmüşdür. Rusiyanın nüfuzlu ədəbi mükafatlarından olan "Russkaya Premiya"nın laureatıdır (2014). Müəllifin "Struenie" essesi ingilis dilinə tərcümə edilərək Dalkey Archive Pres (ABŞ, İrlandiya, İngiltərə) nəşriyyatı tərəfindən çap edilən "Best European Fiction 2016" antologiyasına daxil edilmişdir.*

*Rus ədəbiyyatşünasları N.Məmmədovun əsərlərini "Qertruda Stayn, Robert Kirli, Arkadiy Draqomoşenkonun ənənələri çərçivəsində yazılmış eksperimental fəlsəfi (şeir-nəsr)" mətn nümunəsi olaraq dəyərləndirirlər.*
*Müəllifin şeirləri və nəsr əsərləri, tərcümələri "Novaya yunost", "NLO", "Drujba narodov" və başqa jurnallarda və elektron nəşrlərdə yer almışdır.*

***Kitabları:***

- *Мамедов Н. Струение. Axın. Streaming. (2010)*
- *Мамедов Н. Карта языка (2010)*
- *Мамедов Н. Место встречи повсюду (2013)*

## Nikolay Borisoviç Xatunsev

(1932-2004, Bakı)

*Şair, tərcüməçi. Azərbaycan Yazıçılar Birliyinin (1983) və Azərbaycan Jurnalistlər Birliyinin üzvü (1988).*

*Bakıda 6 №li orta məktəbi bitirib. ADU-nin hüquq fakültəsində təhsil alıb (1955). "Molodyoj Azerbaydjana" qəzetində ştatdankənar müxbir olaraq çalışmışdır (1960-1965). Azərbaycan Elmlər Akademiyasının "Elm" nəşriyyatında redaktor, baş redaktor (1965-1983), redaksiya müdiri işləmişdir.*

*Bədii yaradıcılığa XX əsrin 60-cı illərindən başlamışdır. Vladimir Qafarovdan sonra "Vışka" qəzetində fəaliyyət göstərən "Rodnik" ədəbi birliyinə rəhbərlik etmişdir.*

***Kitabları:***

- *Хатунцев Н. Возхождение. -Баку: 1981*
- *Хатунцев Н. Связь времен. -Баку: 1981*
- *Хатунцев Н. Свет. -Баку: 1984*
- *Хатунцев Н. Донести огонь. -Баку: 1987*
- *Хатунцев Н. Единение. -Баку: 1992*
- *Хатунцев Н. Любимый портрет. -Баку: 2000*
- *Хатунцев Н. Смотрите вверх. -Баку: 20001*

***Tərcümələri.***

- *Низами Генджеви. Лирика. Баку: Язычы, 1982, 194 стр. (соопереводчик) Nizaminin qəzəlləri, "Leyli və Məcnunun" ilk hissələri;*
- *Низами Генджеви. Собрание сочинений (в пяти томах). Т.1. Художественная литература, 1985, 382 с. (со переводчик).*

## Nigar Həsənzadə

(5.04 1975, Bakı)



*Şair, Azərbaycan Yazıçılar Birliyinin üzvü.*

*Bakı Slavyan Universitetinin ( əvvəlki M.F.Axundov adına Azərbaycan Pedaqoji Rus dili və ədəbiyyatı İnstitutunun) filologiya fakültəsini bitirib. 2000-2014-cü illərdə şairə Londonda (Böyük Britaniya) yaşayıb və işləyib. Nigar Həsənzadə İngiltərənin South Bank, Institute of Contemporary Art ICA, River Side studios, Poetry Café, Lauderdale house, St. James Chirch, Pushkin House kimi ən nüfuzlu poeziya meydanlarında 60-dan çox ədəbi gecədə iştirak edib, şeirləri Böyük Britaniyanın Elein Feinştain, Riçard Makkeyn, Kristofer Arkell kimi aparıcı şairlərin tərcümələrində mütəmadi olaraq ingilis mətbuatında (Index on Censorship, London Magazine, Modern Poetry in Translation, London Miscellany, London Poetry) işıq üzü görüb.*

*N. Həsənzadənin şeirləri ABŞ-də və İngiltərədə XX əsrin ən yaxşı qadın şairlərinin şeirləri toplanmış antologiyalara (2005), eyni zamanda XX əsrin 70 ən yaxşı rus qadın şairlərinin yer aldığı "Russian Women Poets" antologiyasına daxil edilib (editor Pr. Valentina Polukhnina - ABŞ-nin"Carcanet" nəşriyyatı. "Russian Women Poets" antologiyası (redaktor - professor Valentina Poluxina) Böyük Britaniya, London, 2002-ci il ("Modern Poetry in Translation").*

*2015-ci ildə vətənə qayıdıb, Azərbaycan Mədəniyyət Nazirliyinin dəstəyi ilə "Söz" ədəbi layihəsini yaradıb və ona rəhbərlik etməyə başlayıb (noyabr, 2015 -2020).*

*"Üfüq üzərindəki qanadlar", "Gümüş", "Başqalarının buludları altında", "Biləklər" kitablarının müəllifidir.*

***Kitabları:***

- *Гасанзаде Н. Крыльями за горизонт, 2000.*

- *Гасанзаде Н. Под чужими облаками. 2004.*
- *Гасанзаде Н. Серебро. 2007.*
- *Гасанзаде Н. Маленький сказочник и Белая Птица Нара. 2012.*
- *Гасанзаде Н. Запястья. 2018*
- *Hasanzade N. On Wings Over the Horizon. Перевод Ричарда МакКейна, 2002.*

## Samid Sahib oğlu Ağayev
(1957, Lənkəran)



*Rusiya Yazıçılar Birliyinin üzvüdür (1996).*

*1978- ci ildən Moskvada yaşayır. Moskva Avtomexanika İnstitutunu və M.Qorki adına Ədəbiyyat İnstitutunu bitirib. İlk romanı olan "Roman nelyubyaşix" Moskvada "Yunost" jurnalında çap olunub, Valentin Katayev mükafatına layiq görülüb. Növbəti "Yeddinci yetkin" romanı Moskva Hökumətinin Ədəbiyyat Mükafatına layiq görülüb. 2000-ci ildən Moskva Ədəbiyyat İnstitutunda çalışır. Yaradıcılıq kafedrasının dosentidir. Bir neçə roman "Noç volka", "Pravila odinoçestva", "Qreçeskaya rapsodiya", "Bakıdan sevgilərlə" (2018) (romanda 1918-ci ilin mart hadisələrinin fonunda baş verən sevgi hekayəsi təsvir olunub) və b. , həmçinin "Hafiz və sultan" tarixi seriyasına daxil olan "Hafiz və sultan", "Həcc yolları", "Qız qalası", "İsanın küçəsi" kimi irihəcmli romanların müəllifidir.*

***Kitabları:***

- *Агаев С. Седьмой совершенный. Прессверк, 2001.*
- *Агаев С. Хафиз и пленница султана. Алгоритм, 2013.*
- *Агаев С. Девичья Башня. Издательство, Алгоритм, 2015.*
- *Агаев С. Правила одиночества. Время, 2007.*

## Sahib Əziz oğlu Məmmədov
(21.11.1986, Bakı)



*Şair, Azərbaycan Yazıçılar Birliyinin, Rusiya Yazıçılar İttifaqının və Beynəlxalq Yazıçılar İttifaqının üzvü.*

*Azərbaycan Dövlət İqtisad Universitetinin məzunudur. İlk şeirlərini 2000-ci illərdə qələmə alıb. Həmin zamandan ölkənin bir çox ədəbi almanaxlarında çap olunmağa başlayıb. Azərbaycanda və xaricdə keçirilən bir çox şeir müsabiqələrinin qalibidir. 2018-ci ildə Nəsimi Beynəlxalq Festivalı çərçivəsində Bakıda keçirilmiş müsabiqədə "Ən yaxşı şeir" mükafatına layiq görülüb, 2019-cu ildə isə Nəsiminin 650 illiyinə həsr olunmuş müsabiqənin laureatı olub. Bakıda keçirilən "LiFFt-2019" IV Avrasiya ədəbi festivalının "Gənc səs" nominasiyasında qalibi olub. Bir çox müsabiqələrin laureatıdır. Əsərləri məktəb dərsliklərinə salınıb (Литература, для 11- классов общеобразовательных заведений. -Şərq-Qərb, 2023).*

***Kitabları:***

- *Мамедов С. Пазлы минувших дней. -Bakı, 2019.*
- *Мамедов С. За место в Раю. (2021.*

## Səidə  Eldar qızı Sübhi (Salayeva)



Azərbaycan Yazıçılar Birliyinin, “SÖZ” ədəbi layihəsinin üzvüdür.  2011- ci ildən çap olunmağa başlayıb. Azərbaycan Yazıçılar Birliyinin nəzdində “Luç” ədəbi birliyi tərəfindən keçirilən müsabiqədə “İlin ən yaxşı şeiri” nominasiyasının, Tbilisdə keçirilən Cənubi Qafqaz gənc rusdilli şairlərin beynəlxalq müsabiqəsinin (2012) qalibidir.

MDB-nin Humanitar Əməkdaşlıq Şurası və Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondu (DHƏF) (Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondunun sədri, Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu) tərəfindən təsis edilmiş  “Debütlərin birliyi” mükafatını almışdır (2020).

Azərbaycanda, eləcə də xarici ölkələrdə bır sıra ədəbi mükafatlara layiq görülüb.

**Kitabları:**

Субхи С. Сомнамбула. Баку: 2022

Sənan Dayandur oğlu İsmayılov

(29. 11. 1967, Şuşa)



*Şuşa şəhərində anadan olub. Bədii yaradıcılığa erkən yaşlarından həvəs göstərmişdir. Həm Azərbaycan, həm də rus dilində əsərlərin müəllifidir.*

*Uşaqlıdan mütaliəni sevməsinə baxmayaraq, fizika və riyaziyyat fənlərinə olan marağı Sənan İsmayılovun mühəndis ixtisasına yiyələnməsinə səbəb olmuşdur. Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti ) məzunudur (1985-1992). Bir müddət Amerika Birləşmiş Ştatlarında biznes üzrə təhsil almışdır (1995-1997). Uzun illərdir ki, vergi sahəsində çalışır.*

*İlk yazılarından biri "Pioner" (Moskva, 1980-cı il) jurnalında dərc ediləndə adının Sənan deyil, Saltan kimi verilməsindən təsirlənən yazıçı, xeyli müddət sonra yazdığı romanının qəhrəmanını Saltan adlandırmışdır. Həmin dövrdə, bir neçə hekayə qələmə alan müəllif, 1990-ci illərdə bədii yaradıcılıqdan uzaqlaşmışdır.*

*Sənan İsmayılovun 2000-ci illərdə çap olunan, vergilərin tətbiqindən bəhs olunan ilk kitabları («Занимательно о налогах» – 2017-ci il və "Vergilər: praktiki aspektlər" – 2018-ci il) nəzəri-praktiki əhəmiyyət daşıyır. Sonrakı illərdə yenidən bədii yaradıcılığa üz tutan müəllifin rus dilində bir neçə kitabı çap olunub. Əsasən Sci-fi (elmi fantastika) janrında əsərlərin müəllifidir.*

*11 hekayə və üç novellanın yer aldığı “Perekrestnıe snı” müəllifin sayca üçüncü kitabıdır. Yazıçı, həmçinin antiutopiya janrında yazılmış iki povestin müəllifidir. “Ottorjenie” və “Tretiy kruq” (2022) əsərlərində insanın sistemlə qarşıdurması deyil, insan və elmi–texniki inqilab, dəyişən, təkmilləşən texnologiyalar dövründə insani keyfiyyətlərin kölgədə qalması, özünü maşınla müqayisə edərək, daim təkmilləşməyə çalışan cəmiyyətin qarşılaşdığı problemlər əks olunur. Mənəvi və mexaniki düşüncə tərzi qarşılaşdırılır.*

***Kitabları:***

- *Исмаилов С. Занимательно о налогах. -Баку: Шарг-Гарб, 2017.*
- *Исмаилов С. Распродажа. -Баку: Ганун, 2019.*
- *Исмаилов С. Ожидающие. -Баку: Ганун, 2019.*
- *Исмаилов С. Перекрестные сны. -Минск: Сегмент, 2021.*
- *Исмаилов С. Перекрестные сны. -Баку: Пергамент, 2022.*

Səyavuş İmran oğlu Məmmədzadə

(02.11.1935 – 3.09.2022, Bakı )



*1935-ci ildə Bakı şəhərində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra ADU-nun filologiya fakültəsində təhsil almışdır (1953–1958). Ədəbi fəaliyyətə tələbəlik illərindən başlamışdır. "Sınaq" adlı ilk şeiri 1956-cı ildə dərc olunmuşdur. Həmin vaxtdan "Molodyoj Azerbaydjana" qəzetində mütərcim, sonralar ədəbi işçi işləmişdir. Onun ədəbi fəaliyyətində poeziya, nəsr, publisistika, bədii tərcümə xüsusi yer tutur. Moskvada M. Qorki adına Ədəbiyyat İnstitutunun bədii tərcümə bölməsini bitirmişdir (1959–1966). Azərbaycan Dövlət Nəşriyyatında redaktor, "Literaturnıy Azerbaydjan" jurnalında ədəbi işçi, tənqid və publisistika şöbəsinin müdiri (1967–1976), Azərbaycan Yazıçılar Birliyində referent-məsləhətçi (1977–1995) vəzifəsində işləmişdir. Azərbaycan poeziyasından rus dilinə ilk poetik tərcüməsi, Ağacavad Əlizadənin Səməd Vurğuna həsr etdiyi şeiri, 1956-cı ildə "Lenin tərbiyəsi uğrunda" qəzetində çıxmışdır.*

*Azərbaycan klassik və müasir ədəbiyyatından rus dilinə, eləcə də rus, bolqar, Ukrayna, Polşa ədəbiyyatından Azərbaycan dilinə etdiyi tərcümələri dövri mətbuatda çap etdirmişdir.*

***Kitabları:***

- *Мамедзаде С. Небо. Баку: Азернешр, 1968, 78 с.*
- *Мамедзаде С. Тверской бульвар (повести). Баку: Гянджлик, 1971, 112 с.*
- *Мамедзаде С. Самоутверждение (стихи, переводы). Баку: Азернешр, 1976, 126 с.*
- *Bir yuxusuz gecə (oçerklər). Bakı: Gənclik, 1976, 56 s.*
- *Ночные яблоки (рассказы). Баку: 1979, 120 с.*
- *Günəbaxan insanlar (şeirlər). Bakı: Yazıçı, 1983.*

- *Komendant saatı (şeirlər). Bakı: Gənclik, 1995, 45 s.*

**Tərcümələri (rus dilinə):**

- *Кямал Талыбзаде. Аббас Сиххат. Баку: Детюниздат, 1963.*
- *Мамед Араз. Пой Аракс. М.: Советский писатель, 1966, 66 с.*
- *Сохраб Тахир. Песня мужества. М.: Советский писатель, 1966, 90 с.*

**(bolqar dilindən):**

- *Bolqar hekayələri. Bakı: Yazıçı, 1980, 120 s.*
- *Georgi Strumski. Odlar yurdu. Bakı: Yazıçı, 1982, 90 s.*
- *Yordan Milev. İnsanlar və səhralar. Bakı: Yazıçı, 1983, 200 s.*
- *Bolqar çələngi. Bakı: Yazıçı, 1987, 276 s. (şərikli)*

Tofiq Hüseynbala oğlu Ağayev

(06.06. 1933 Salyan- 04.01.2021 Bakı)



*Şair, dramaturq, tərcüməçi. Azərbaycan Yazıçılar Birliyinin üzvüdür (1983).*

*Orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinin rus şöbəsində təhsil almışdır (1952-1957). Bakıda “Vışka”qəzetinin redaksiyasında məsul katibin müavini, məsul katib (1972-1995) vəzifələrində işlə- mişdir. 30 kitabın müəllifidir. T.Ağayevin novellalardan ibarət ilk kitabı 1967-ci ildə nəşr olunub.Uşaqlar üçün bir çox əsərlərin müəllifidir. Onun Azərbaycan və rus dillərində yazdığı şeirləri və kiçik həcmli pyesləri “Murzilka”, “Kolobok”, “Kastyor”,“Literaturnıy Azerbaydjan”, Göyərçin” və s. jurnallarında dərc olunmuşdur. A.Şaiq adına Azərbaycan Dövlət kukla Teatrında “Cırtdan ayıdan və qurddan yaxasını necə qurtardı”, “Cırtdanın yeni sərgüzəştləri”, “Cəsur Əhməd” pyesləri rus dilində tamaşaya qoyulmuşdur. Əsərləri digər ölkə xalqlarının dillərinə tərcümə olunmuşdur. Bədii tərcümə ilə də məşğul olmuş, hayku janrında şeirlər yazmışdır. Ağayevin hayku stilində şeirləri Rusiyanın “Deti Ra”, “Arion” jurnallarında çap olunub. Mindən artıq aforizmi var. Azərbaycanda rus dilinin inkişafındakı xidmətlərinə görə, Rusiya səfirinin Ədəbiyyat mükafatına layiq görülüb (2017).*

## Valentina Əfəndiyeva

(18.06.1944 – 29.07. 2022, Bakı)



*Azərbaycan (2016), Rusiya Yazıçılar Birliyinin, Rəssamlar İttifaqının üzvü (2017). 13 kitabın müəllifidir.*

*Əsərləri ölkəmizdə çap olunan jurnallarda, Rus NƏB (NFO) kolleksiyalarında (Novomoskovsk Ədəbiyyat Birliyi), Stikhoslov.ru saytında çap olunmuşdur. "Qızıl bənd" Beynəlxalq müsabiqəsinin iştirakçısı olmuş, bu portalda keçirilən ədəbi müsabiqələrdə iştirak etmişdir. 2005-cı ildən "Vışka" qəzeti nəzdində fəaliyyət göstərən "Rodnik" ədəbi birliyinin rəhbəri olub. Əsərləri bir çox almanaxlarda çap olunub.*

## Vladimir Əbüləzim oğlu Qafarov

(19.05.1935, Sabirabad - 19.07.2000, Bakı)



*Şair, tərcüməçi, 1957-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, Azərbaycan SSR Əməkdar mədəniyyət işçisi (1979), Azərbaycan SSR Əməkdar incəsənət xadimi(1989). Bakıda orta məktəbi bitirdikdən sonra ADU-nun filologiya fakültəsində təhsil almışdır (1952-1957).*

*"Literaturnıy Azerbaydjan" jurnalında ədəbi işçi (1960-1963), "Literaturnaya qazeta"nın Azərbaycan üzrə xüsusi müxbiri (1967), "Bakinskiy raboçiy" qəzetində şöbə müdiri olmuşdur. Sonra bütün qüvvəsini yaradıcılığa həsr etmişdir.*

*Bədii yaradıcılığa 1952-ci ildə "Oğul" adlı ilk mətbu şeri ilə başlamışdır. Bundan sonra istər respublikada, istərsə də onun hüdudlarından uzaqlarda əsərləri müntəzəm çap edilmişdir. "Gəlin", "İki qala", "Lermontov, 123", "Bürünc külək", "Küləkli alov" və digər kitabları oxucuların rəğbətini qazanmışdır. Poetik tərcüməyə böyük əhəmiyyət vermişdir. Azərbaycan el ədəbiyyatı, klassik aşıq poeziyası və sovet şeri incilərini seçib ruscaya çevirmişdir. Əsərlərini Azərbaycan və rus dillərində yazmışdır. Azərbaycan Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanları ilə təltif edilmişdir (1968-1985).*

***Kitabları:***

- *Qafarov V. Lermontov, 123, B., Azərnəşr, 1965, 130 s.*
- *Гафаров В. Невеста. Баку, Азернешр, 1961, 60 с.*
- *Гафаров В. Две крепости. Баку, Детюниздат, 1963, 71 с.*
- *Гафаров В. Бронзовый ветер. Баку, Азернешр, 1968, 147 с.*
- *Гафаров В. Огонь на ветру. Баку, Гянджлик, 1972, 88 с.*

## Vyaçaslav Petroviç Zaytsev
(8.02.1924, Moskva – 1990, Bakı)



*Şair, SSRİ Yazıçılar Birliyinin üzvü (1963-cü ildən).*

*6 yaşından Bakıda yaşayıb, burada da vəfat edib. İkinci Dünya Müharibəsinin iştirakçısı olub. Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsində təhsil alıb. Sonradan M. Qorki adına Ədəbiyyat İnstitutunu bitirib.*

***Kitabları**:*

*Зайцев В. Встреча с самим собой. (1961).*

*Зайцев В. Облака, (1965).*

*Зайцев В. Отблеск, (1973).*

*Зайцев В. Лирика, (1976).*

*Зайцев В. Мгновенья надежды, (1982).*

*Зайцев В. Рельсы сквозь годы, (1984).*

## Yana Kandova

(1978-2009, Bakı)



*Slavist, tərcüməçi. Nəsr əsərləri, poeziya, pyeslər müəllifidir.*

*2004-cü ildə Bakı fantastikasının yeni dalğasını təqdim etdiyi "Bizim fantaziya" silsilə almanaxlarının əsasını qoyub. "Cənub üçbucağı" Bakı elmi-fantastik klubunun təsisçisi və sədri olub. İki hekayə və miniatür əsərlər toplusunun müəllifidir: "Qırmızı səs" (Bakı, 2003) və "Bakı hekayələri" (Bakı, 2005). "Zlata Kan" Beynəlxalq fantastika müsabiqəsinin finalçısıdır (Sofiya), ("Məzarların ustası" hekayəsinə görə, 2009. Bolqar dilinə tərcümə).*

***Kitabları:***

*Кандова Я. Рыжий голос. -Баку: 2003.*

*Кандова Я. Бакинские рассказы.- Баку: 2005.*